**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№293/1** **22 noyabr 2017-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planı barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə və "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər)" uyğun olaraq, habelə Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 8.9-cu "2018-ci il üçün Auditorlar Palatasının iş planının hazırlanması" bəndinin icrası ilə bağlı tərtib edilmiş Auditorlar Palatasının 2018-ci il üzrə iş planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planı təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və struktur bölmələrin rəhbərlərinə (M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, Y.Namazəliyev, E.İbrahimov, R.Cəfərli, M.Hüseynova) tapşırılsın ki:

- təsdiq edilmiş iş planında nəzərdə tutulmuş tədbirlərin müvafiq qaydada vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər;
- iş planında müvafiq işlər üzrə plan-proqramları və qrafikləri 2017-ci il 8 dekabr tarixinədək təqdim etsinlər.

3. Palatanın Şurası yanında Komitələrin rəhbərlərinə (V.Kərimov, İ.Əliyev, A.Qurbanov, E.İbrahimov, N.Abbaslı, L.Bayramova, Z.Hüseynov, Ü.Fətiyev) tövsiyə edilsin ki, komitələrin əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində yaxından iştirak etsinlər.

4. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, T.Əmiraslanov) tapşırılsın ki, bir ay müddətində Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planının Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**